HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 okyabr 2015-ci il
№009 (09)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## GÜRCÜSTAN TÜRKİYƏ İLƏ HƏMRƏYLİK NUMAYİŞ ETDİRDİ



Oktyabrın 10-da Ankarada 97 nəfərin həlak olması, 245 nəfərin yaralanması ilə nəticələnən qanlı terror hadisəsi baş vermişdir. Türkiyə hökuməti üç günlük matəm elan etmişdir. Bu hadisə Türkiyənin matəmi olmaqdan çıxaraq, dünyanın tərəqqipərvər qüvvələrinin də matəminə çevrilmiş, terroru qınayan hər bir kəs türk xalqının dərdinə şərik olmuşdur. Bu qanlı terror hadisəsi ölkəmizdə də birmənalı şəkildə qınanmışdır.

Gürcüstan prezidenti Qeorqi Marqvelaşvili, ölkəmizin baş naziri İrakli Qaribaşvili və digər rəsmi şəxslər Türkiyənin Gürcüstandakı səfirliyinə gələrək, başsağlığı vermişlər.

Türkiyənin Gürcüstandakı səfirliyinin binası qarşısında Gürcüstan həmkarlar ittifaqlarının və “Çoxmillətli Gürcüstan” qeyri-hökumət təşkilatının təşkilatçılığı ilə həmrəylik aksiyası olub. Aksiyanın keçirilməsində məqsəd oktyabrın 10-da Ankarada törədilmiş terror aktı ilə əlaqədar türk xalqına başsağlığı vermək və həmrəylik ifadə etmək idi.

Aksiyada tələbələr, Azərbaycan və erməni ictimaiyyətinin nümayəndələri də iştirak ediblər.

Aksiyanın təşkilatçıları Türkiyə səfirliyində açılmış Kitaba başsağlığı qeydləri etmişlər. Türkiyənin Gürcüstandakı səfiri Zeki Levent Gümrükçü aksiya iştirakçıları ilə görüşüb və türk xalqı ilə həmrəy olduqlarına görə onlara təşəkkürünü bildirib.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ BAKIYA SƏFƏR EDİB



Gürcüstanın baş naziri İrakli Qaribaşvili oktyabrın 10-da Azərbaycana səfər edib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev adına beynəlxalq hava limanında Gürcüstanın baş naziri İrakli Qaribaşvilini Azərbaycanın energetika naziri Natiq Əliyev və digər rəsmi şəxslər qarşılayıblar.

Gürcüstan hökumət administrasiyasından bildiriblər ki, Azərbaycan prezidenti İlham Əliyev və baş nazir İrakli Qaribaşvili ikitərəfli münasibətlər və regional təhlükəsizlik məsələlərini müzakirə ediblər.

Söhbətin əvvəlində Azərbaycan prezidenti Gürcüstan hökumət başçısının səfərinin vacibliyini qeyd edib. Gürcüstanın baş naziri iki ölkə arasında mövcud olan mehriban qonşuluq münasibətləri barədə danışıb.

Liderlər siyasi-iqtisadi mövzuları və regional təhlükəsizlik məsələlərini müzakirə ediblər. İnfrastruktur, energetika, nəqliyyat sahəsində və münasibətlərin dərinləşdirilməsinin prespektivləri sahəsində əməkdaşlığın əhəmiyyəti qeyd olunub.

Qərara alınıb ki, İlham Əliyev yaxın vaxtlarda Gürcüstana səfər edəcək.

*KÜTLƏVİLƏŞƏN PSİXOLOJİ SARSINTILARIN MƏNBƏYİ* 2

*HEÇ KƏSİN ÖZ DAŞI ÖZ BAŞINA DÜŞMƏSİN* 3

*DÜNYANIN GEOSİYASİ XƏRİTƏSİNİN YARADILMASINDA RUSİYANIN CANFƏŞANLIĞI* 4

*YAĞIŞLI DÜŞÜNCƏLƏRDƏN SÜZÜLƏN SÖHBƏT* 5

*İSLAM ALƏMİNİN YENİ İLİ VƏ MƏHƏRRƏMLİK* 6

*HAMIMIZ SEVDİYİMİZ SAHƏDƏMİ TƏHSİL ALIRIQ?* 7

*İKİNCİ TÜRK DƏ NOBEL MÜKAFATI ALDI* 8

## QARİBAŞVİLİ: AZƏRBAYCAN GÜRCÜSTANIN STRATEJİ TƏRƏFDAŞIDIR VƏ TƏRƏFDAŞI OLARAQ DA QALACAQ



İrakli Qaribaşvili Gürcüstan hökumətinin qaz sahəsində Azərbaycanla öz münasibətlərinə guya yenidən baxmaq niyyəti barədə siyasi opponentlərin bəyanatını cəfəngiyyat adlandırıb.

“Azərbaycanla münasibətlərə heç bir yenidən baxma nəzərdə tutulmur. Azərbaycanla strateji münasibətlər və əməkdaşlıq dövlətimizin və hökumətimizin əsas istiqamətlərindən biri olub, yenə də elədir və belə də qalacaq”, – Qaribaşvili jurnalistlərin “Qazprom”la danışıqlar və Azərbaycan qazının Rusiya qazı ilə əvəz edilməsi haqqında suallarını cavablandırarkən bəyan edib.

Hökumət başçısı Azərbaycana münasibət məsələsinə yenidən baxılması fikrini yaxına belə buraxmayıb.

“Bəzi siyasətçilər Azərbaycana münasibətdə siyasətə yenidən baxılmasını necə düşünə bilərlər. Bu, tamamilə cəfəngiyyatdır! Mən təəccüb edirəm ki, bizim müxalifət partiyalarının nümayəndələri belə cəfəng mövzuları necə düşünüə bilirlər. Bu, onların məsuliyyət daşıdığı mövzudur. Azərbaycan qazının diversifikasiyasından, əvəzlənməsindən heç bir söhbət gedə bilməz”, –Qaribaşvili qeyd edib.

Özünün oktyabrın 10-da Bakıya işgüzar səfərindən və Azərbaycan prezidenti İlham Əliyevlə görüşündən danışan baş nazir qeyd edib ki, görüşdə “ölkələrimiz arasındakı sıx dostluq münasibətləri, habelə bu münasibətlərin daha da dərinləşdirilməsi” müzakirə olunub.

Xatırladaq ki, Gürcüstana əsas qaz ixracatçısı Azərbaycandır. Gürcüstan Rusiya qazının Ermənistana nəqlindən cəmi 10% qaz əldə edir.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

# KÜTLƏVİLƏŞƏN PSİXOLOJİ SARSINTILARIN MƏNBƏYİ

**Mənim əhvalım niyə pis olmamalıdır ki? Və ya əhvalımın yaxşı olması üçün niyə bir səbəb tapılmır? Bir az da elmi kərtətsəm mənim psixolojim, psixoloji durumum niyə baş-ayaq olub? Vallah, mənim aşağıda gətirəcəyim dəlilləri yetərli saysanız, onda mənim əhvalımın xan-xarab olması, psixoloji durumumun bərbadlığı siz dəyərli oxuculara bəlli olmaya bilməz. Və dübarə orasını da əlavə etmək istəyirəm ki, həmin dəlillər yetərlidirsə, onda mənim əhvalım, psixoloji durumum niyə pis olmasın, bir özünüz söyləyin? Gətirəcəyim dəlillərdən dolayı mənim psixoloji durumum pis də olar, lap üstəgəl canı da çıxar?**

Mənim depressiyaya düşməm üçün bir çiçəyin vaxtsız solması da, bir kəpənəyin həşəratlara yem olması da yetərlidir. Və bir Allah bilir ki, hər an neçə çiçəyi vaxtsız soldururuq, neçə kəpənəyin həşəratlara yem olmasına yardımçı oluruq. Hər gün əhalisinin yeddidə biri aclıq çəkən, hər gün minlərlə adamı intihara əl atan bu dünyada əhvalın korlanmasından, psixoloji durumun zibilə dönməsindən, depressiya adlanan bataqlığa yuvarlanmaqdan, stres deyilən zəhrimarı keçirməkdən asan nə ola bilər ki?

10 oktyabr Ümumdunya psixi sağlamlıq günü adlı bir tarixin varlığı da dünyamızın psixoloji yardıma ehtiyacı olmasından xəbər verir. Kəsilən başlar, tökülən qanlar, dağıdılan şəhərlər fonunda psixoloji durumun dəhşətli durumda olmasını söyləmək üçün bu sahənin mütəxəssisi olmağa da ehtiyac qalmır. Əxlaqi dəyərlərin deqradasiyasi, maddinin mənəvini əsarətinə saldığı, ən kiçik insani dəyərlərin unudulduğu bir məqamda mənim psixoloji durumumun qənaətbəxş olacağını güman etmək belə gülüncdür. Orasını da qulluğunuza ərz edim ki, psixoloji baxımdan mənim düzəlməyimə kiçicik bir şans belə görünmür. Nədən ki, mənim könlümü azacıq da olsa aça biləcək, üzümü güldürə biləcək xəbərlər yox dəftərinə çəkilib və tapılmasına ümid də yoxdur.

Elə götürək həmin 10 oktyabrı, dünya başbilənlərinin yığılıb-dərilib psixi sağlamlığı o söz olanlara yardım məqsədilə ayarladıqları tarixi deyirəm. Düşündülər ki, bu, ruhi sarsıntı keçirənlərə əməli bir yardım olmasa da, bir mənəvi dayaq, kiçik bir təsəlli olar. 1992-ci ildən düzənlənən Ümumdünya psixi sağlamlıq gününün 23-cüsündə Türkiyədə düzənlənən qanlı terror hadisəsi artıq bir nəfərin, beş nəfərin deyil, az qala bütün bəşərin psixoloji durumunda əyintilərin olmasından xəbər verir. Düşünürəm ki, artıq bu, kütləvi psxioloji sarsıntıların törəməsidir. Hadisəni araşdıran təhlilçilərin qənaətinə görə, qanlı olayın müəllifləri bir-iki ruhi xəstə yox, yuxarıda oturub dünyanı və ya dünyanın hansısa bölgəsini idarə edənlərdəndir. Fərdlər kimi bütöv xalqların, dövlətlərin də psixikasının xəstələnməsinin mümkünlüyünə inanmağa başlayıram. Fərdlərin ruhi çatışmamazlığının cəmiyyətlərə, xalqlara, dövlətlərə sirayət etməsi fikrini özümdən uzaqlaşdırmaq istəsəm də, bacarmıram. Mənim bu qənaətə gəlməmə Şimali Koreyanın sərsəm lideri Kim Çen İnin Türkiyəyə hədə-qorxu gəlməsi və özünə Türkiyənin düşmənlərinin yanında yer etmək istəməsi də təkan verir. Öz xalqını kölə vəziyyətində saxlayan biri ruhi xəstədən bundan artıq bir hərəkət gözləmək də ağılsızlıq deyilmi?

İndi Allah eşqinə, bir özünüz söyləyin, hər gün eşitdiyim böhran xəbərlərimi mənim kefimi-əhvalımı düzəldəcək, yoxsa hər sözündən qan daman kriminal xəbərlərmi məni düşdüyüm ağır girdabdan xilas edəcək? Bir özünüz insafla deyin görüm, ən xırda məişət məsələsinin məngənəsində sıxılan, düşdüyü girdabdan çıxmağa taqəti qalmayan birinin üzü güləmi, kefi alabuludda oynayarmı? İnsanların psixoloji sağlamlığını özünə qaytarmaq üçün işığı qaranlıqdan çıxarmağın, ağı qaradan seçməyin gərəkliliyini hər birimiz bilirik. Onu da bilməmiş deyilik ki, qaranlıq qatılaşdıqca işığın dəyəri ölçüyəgəlməz dərəcədə artır, qaranın yanında ağın-bəyazın dəyəri birə min artaraq, əlavə dəyər qazanır. Bütün bunları bilirik. Dünyanı işığa-nura bələmək üçün gücümüz-iqtidarımızmı yoxdur, ya elə adicə həvəsmizmi çatışmır? Bu bəsit bir suala cavab tapmaqda aciz deyilikmi?

**...Gec də olsa sonda qulağınıza bir sirr pıçıldamaq istəyirəm: bütün hallarda ruhi müvazinətinizi qoruyun...**

# QARDABANİDƏ YENİ UŞAQ BAXÇASI AÇILIB



Qardabanidə yeni uşaq baxçası fəaliyyətə başlayıb. "Gül" adlanan uşaq baxçası qapılarını oktyabrın 1-dən azyaşlıların üzünə açıb. Baxça "Qardabani Gənclər Mərkəzi"nin təşəbbüsü və təşkilatçılığı ilə yaradılıb.

"Gül" 60 nəfər körpənin təlim və tərbiyəsi üçün nəzərdə tutulub. Müasir üslubda dizayn edilmiş, keyfiyyətli avadanlıqlarla təchiz olunmuş baxçada körpələr üçün hər cür rahatlıq yaradılıb. Belə ki, burada uşaqların düzgün tərbiyə olunması üçün müasir standartlara uyğun oyun-təlim otaqları, yataq otaqları və yeməkxana fəaliyyət göstərir. Azyaşlıların açıq havada müxtəlif mütəhərrik oyunlar oynaması üçün də xüsusi şərait yaradılıb. "Gül" baxçasının həyətində quraşdırılmış uşaq idman qurğuları körpələrin sağlamlığının inkişafında xüsusi rol oynayır.



"Gül" uşaq baxçasında azyaşlıların təlim-tərbiyəsi ilə 7 nəfər müəllim-tərbiyəçi məşğul olur. Yeni baxçanın rəhbəri Vüsalə Məmmədovadır. Onun sözlərinə görə, "Gül" baxçasına etibar edilən uşaqların Azərbaycan və gürcü dillərində təlim keçmələri, məktəb yaşı çatanadək onların düzgün istiqamətləndirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, "Gül"ün xüsusi mikroavtobusu azyaşlıların xidmətindədir.

Körpələri "Gül" uşaq baxçasına etibar etməyə dəyər.

# TBİLİSİDƏ "İPƏK YOLU FORUMU" ÖZ İŞİNƏ BAŞLAYIB

15-16 oktyabr tarixində Tbilisidə ilk dəfə "İpək yolunun Tbilisi forumu" keçirilir.

Forum Gürcüstan hökuməti və Çin Xalq Respublikasının təşkilatçılığı və Asiya İnkişaf Bankının dəstəyi ilə keçirilir.

Qeyd edək ki, Foruma 32 ölkənin hökumət nümayəndələri qatılıb. Forumun işində həmçinin 20 beynəlxalq, maliyyə və donor təşkilatın mütəxəssisləri, müxtəlif ölkələrin biznes sahəsində çalışan nümayəndələri də iştirak edir. Ümumilikdə forumda iştirak etmək üçün 700-ə qədər qonaq gəlib.

Forumda çıxış edən Gürcüstan baş naziri Irakli Qaribaşvili bu tədbirin Gürcüstan üçün böyük imkanlar açdığını bildirib: "Forumun keçirilməsi həm Gürcüstan, həm də digər ölkələr üçün vacibdir. İpək Yolunun Tiflis Forumu dostluq əlaqələrini gücləndirəcək. Bu tarixi yolun imkanlarından təkcə Gürcüstan deyil, bütün iştirakçı ölkələr istifadə edəcək".

"İpək yolunun Tbilisi forumu" çərçivəsində bir sıra qlobal məsələnin ayrı-ayrı bölmələrdə müzakirəsinin aparılması nəzərdə tutulur.




# TÜRKİYƏDƏ RUSİYA TƏCAVÜZÜNÜ ƏKS ETDİRƏN FOTOSƏRGİ KEÇİRİLİB

Ankaradakı Gürcüstan səfirliyində Abxaziya müharibəsinin 22-ci və Rusiya-Gürcüstan müharibəsinin 7-ci ildönümünə həsr olunmuş qəbul keçirilib. XİN-dən bildirilib ki, bu münasibətlə "Qaçqınlar fotokameralarda" (Abxaziya və qondarma Cənubi Osetiya) və "Mədəni irs işğal altında" (Abxaziya) sərgi ekspozisiyası keçirilib.

Sərgi Abxaziya Respublikası hökumətinin sədri Vaxtanq Kolbayanın sədrliyi ilə baş tutub. Sərgini Vaxtanq Kolbaya və Gürcüstanın Türkiyədəki səfiri İrakli Koplatadze açıblar. Mərasimdən sonra qonaqlar gürcü şərabının və abxaz təamlarının dadına baxmaq imkanı qazanıblar.

XİN-nin məlumatına görə, Gürcüstan səfirliyinin təşkil etdiyi tədbirdə Türkiyə XİN və mədəniyyət nazirliyinin nümayəndələri ilə bərabər, Ankarada akreditasiya olunmuş diplomatik korpusların rəhbərləri, akademik, qeyri-hökumət, biznes və media dairələrinin təmsilçiləri, gürcü və abxaz diaspornun nümayəndələri, Ankara universitetlərində təhsil alan gürcü tələbələr iştirak etmişlər.

# GÜRCÜSTAN VERGİ TARİFİ AŞAĞI OLAN ÖLKƏLƏRİN SİYAHISINA DÜŞÜB

Dünya bankının reytinqinə görə, Gürcüstan vergi tarifi ən aşağı olan ölkələr arasında 9-cu yerə çıxıb.

Araşdırmada bildirilir ki, biznesmenlər öz fəaliyyətlərinin genişləndirilməsi zamanı ən çox vergi tariflərinə diqqət yetirirlər. Bir çox ölkələr öz aralarında tez-tez bu məsələdə rəqabət aparırlar.

Hesablamada bütün vergilərin və biznesə düşən vergi yükünün cəmi əsas meyar sayılır. Biznesin ödəmədiyi, əməkdaşların ödədiyi gəlir vergisi diqqətə alınmır.

Siyahını 22,8%-lə Honkonq tamamlayır.

7,4%-lik göstərici ilə Makedoniya birinci yeri tutur.

Gürcüstan 16,4% göstərici ilə 9-cu yerdə qərarlaşıb.

Dünya bankının hazırladığı hesabatda bildirilir ki, Gürcüstan postsovet ölkələri arasında birinci olaraq, vergiləri aşağı salıb və aşağı vergi qoyma sistemi tətbiq edib.

Siyahıya keçmiş SSRİ ölkələri arasında Gürcüstandan başqa 20-% vergi yükü ilə Ermənistan da düşərək, siyahıda 13-cü yeri tutub.

## PİKRİYA ÇİXRADZE GÜRCÜSTAN PREZİDENTİNİN MÜŞAVİRİ OLDU



Prezident Qeorqi Marqvelaşvili oktyabrın 12-də özünün yeni siyasi məsələlər üzrə müşaviri Pikriya Çixradzeni ictimaiyyətə təqdim edib. P. Çixradze rəhbərlik etdiyi "Yeni sağçılar" müxalifət partiyasında fəaliyyətini dayandırdığını bildirib.

İndiyədək Gürcüstan prezidentinin hərbi işlər, dini azlıqların işi, beynəlxalq məsələlər və insan haqları üzrə dörd müşaviri var idi. Iqtisadi məsələlər üzrə funksiyanı isə prezident administrasıyası başçısının müavini yerinə yetirir.

"Pikriya xanım bizim administrasiyada və prezidentin və onun administrasiyasının cəlb olunduğu proseslərdə çox mühüm vəzifə tutur. Təbii olaraq Pikriya xanıma onun təsirli və uzunmüddətli siyasi fəaliyyətini nəzərə alaraq əməkdaşlıq barədə xahiş etdik", – Marqvelaşvili deyib.

## AZƏRBAYCAN TƏHSİL NAZİRİ GÜRCÜSTANDA RƏSMİ SƏFƏRDƏ OLUB

Oktyabrın 8-də Gürcüstan elm və təhsil naziri Tamar Sanikidze ölkəmizdə rəsmi səfərdə olan Azərbaycan respublikasının təhsil naziri Mikaıl Cabbarovla görüşüb.

Tərəflər iki ölkənin təhsil sistemi və gələcək perspektivlərini müzakirə ediblər. Rəsmi görüşdə nazirlər birgə layihələri müzakirə edərək, müsbət nəticələr gətirəcək əməkdaşlığın gələcəkdə dərinləşdirilməsi ilə bağlı razılığa gəliblər. Mikayıl Cabbarov və digər rəsmilər ümumi, ixtisas və ali təhsil sahəsində həyata keçirilən yeniliklərlə tanış olublar. Qonaqlar universitetlərarası qarşılıqlı əməkdaşlıq baxımından Gürcüstan universitetlərinin beynəlmiləl əhəmiyyətni qeyd edərək, elm sahəsində Gürcüstanda atılan addımları müsbət qiymətləndiriblər. "Horaizen 20/20" Avropa elm fondu çərçivəsində gürcü və azərbaycanlı alimlər arasında əlaqələrin daha da möhkəmlənəcəyini bəyan ediblər.



Azərbaycan respublikasının təhsil naziri Mikaıl Cabbarov San Dieqo universitetinin Gürcüstanın üç aparıcı universitetində tədris edilən və tələbələrə həm amerikan, həm gürcü diplomu verən bakalavr proqramları ilə tanış olub. Azərbaycanın təhsil naziri Tbilisidə fəaliyyət göstərən azərbaycandilli məktəblərdə də qonaq olub. 64 saylı məktəbin nəzdində fəaliyyət göstərən "Ceyran" rəqs ansamblının ifasında gürcü və Azərbaycan xalq rəqslərindən ibarət konsert proqramını izləyib.

## GÜRCÜSTANA NATO-YA ÜZVLÜK ÜZRƏ FƏALİYYƏT PLANININ VERİLMƏSİ MƏNTİQİ OLACAQ

Gürcüstan XİN-nin başçısı Qeorqi Kvirikaşvili bəyan edib ki, Gürcüstana NATO-ya üzvlük üzrə fəaliyyət planının (MAP) verilməsi alyans tərəfindən atılmış məntiqi addım olacaq.

Kvirikaşvili və müdafiə naziri Tinatin Xidaşeli Brüsseldə NATO-nun baş katibi Yens Stoltenberq və onun müavini Aleksandr Verşbou ilə görüşüblər. Onlar Gürcüstanın alyansa inteqrasiya olunması prosesini və alyansın 2016-cı ilin iyulunda Varşavada keçiriləcək sammitini müzakirə ediblər.

"Əlbəttə, MAP Gürcüstanın alyansdan gözləməli olduğu növbəti məntiqi addımdır, lakin bizim son məqsədimiz NATO-ya üzvlükdür. Bizim görüşdə qeyd etdiyimiz əsas məsələ budur. Gürcüstan hökuməti üçün NATO-ya üzvlük siyasi gündəmin ən əsas məsələsi olaraq qalır", – Kvirikaşvili bildirib.

Kvirikaşvili qeyd edib ki, Stoltenberq Gürcüstanın NATO-ya inteqrasiya yolunda inkişafına və onun ərazi bütövlüyünün bərpasına tərəfdar olduğunu ifadə edib.

Brüsseldə oktyabrın 8-də NATO-ya üzv dövlətlərin və alyansın partnyorlarının görüşü keçirilib. Xarici işlər nazirləri səviyyəsində növbəti görüş dekabrda keçiriləcək.

Həmin görüşdə Varşava sammitinin gündəliyinə salınmalı olan məsələlər müzakirə olunacaq.

## BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU GƏLƏN İL TAM İSTİFADƏYƏ VERİLƏCƏK



"Azərbaycan dəmir yolları" Qapalı Səhmdar Cəmiyyətinin rəhbəri Cavid Qurbanov məlumat verib ki, Bakı-Tbilisi-Qars dəmir yolu 2016-cı ilin noyabrınadək tam istismara veriləcək.

"BTQ-də tikinti işləri 2016-cı ildə tam şəkildə başa çatacaq. 2015-ci ilin sonunadək biz yük daşımalarına başlamağı planlaşdırırıq, gələn ilsə yolların elektrikləşdirilməsi və başqa dəmiryolu infrastrukturları üzrə işlərin başa çatdırılması nəzərdə tutulur", – Cavid Qurbanov bildirib.

Bununla belə Qurbanov bildirib ki, işlərin başa çatdırılması müddəti təkcə Azərbaycandan asılı deyil, həm də layihənin digər iştirakçılarından asılıdır. "Xüsusilə Türkiyədə 75 kilometrlik yol hissəsi inşa olunmalıdır, lakin bu gün heç dəmir yolunun üst yataq hissəsi adlandırılan döşənməsində işlər başa çatdırılmayıb", – "Azərbaycan dəmir yolları" QSC-nin rəhbəri əlavə edib.

Cambul MƏMMƏDLİ
*cmemmedli@mail.ru*



## *HEÇ KƏSİN ÖZ DAŞI ÖZ BAŞINA DÜŞMƏSİN*

**Ötən bir neçə il ərzində dünyamız "çalxalanmasını" görünməmiş həddə çatdırıb və gün keçdikcə vəziyyəti daha da gərginləşməkdədir. Bir sıra Yaxın Şərq ölkələri od-alov içindədir. Onlardan bəzilərinin artıq sadəcə olaraq, quruca adı qalıb. Dövətləri, hakimiyyətləri əllərindən alınıb və həmin ölkədə yaşayan az saylı etnik nümayəndələrə verilib. Məsələn, İraqda. Demək olar ki, bu ölkələrdən bir çoxu istər iqtisadi, istər də siyasi nöqteyi-nəzərdən artıq çökmüş durumdadır və bərpa olunmaları da müşkülə bənzəyir. Dünyanı istədikləri kimi "barmaqlarına dolayıb", "demokratiya", "bərabərlik", "insan haqları" və s. bu qəbildən qulaqlarda gözəl səslənən terminlərlə millətlərin başını qatıb, əslində isə şərə qulluq edərək, öz mənafelərini güdən məkrli qüvvələr çox zaman hədəfə aldıqları bu və ya digər ölkənin öz qüvvəsini özünə qarşı qoyur. Yəni "öz daşını öz başına salır", özü isə cərəyan edən hadisələri tülküsayaq kef-damaq içində kənardan böyük məmnuniyyət və zövq hissləriylə izləyir.**

Son bir neçə gündə dünya mediasını məşğul edən, insanliği sarsıdan acı xəbər nə yazıq ki, Türkiyədə baş verdi. Belə ki, oktyabrın 10-da Türkiyənin paytaxtı Ankarada dəhşətli terror aktı yaşandı. Qanlı olay nəticəsində 97 nəfər insan həlak oldu, 48 nəfərin vəziyyəti ağır olmaqla 246 nəfər isə yaralandı. Bu yazını yazmaqda məqsədim həmin terroru təşkil edən alçaqları və qanlı olayı həyata keçirən ətbaş icraçı-oyuncaqları ifşa etmək deyil; onsuz da Türkiyə böyük və möhtəşəm bir dövlətdir, dövlətini və dövlətçilik ənənələrini uca tutan TÜRK milləti Yer üzünün seçilmişlərindəndir. Bu ağrının da öhdəsindən şərəf və ləyaqətlə gələcək, həmişə olduğu kimi, milli mənsubiyyətindən asılı olmayaraq, Türkiyə əhalisi ağır günlərdə yenə yumruq kimi birləşəcək və bu acını yaşadanlara müvafiq cəzasını verəcəkdir! Məni məyyus edən tamamilə başqa məsələdir: Müqəddəs kitabımız oxumanı, savadlanmağı birbaşa əmr etdiyi, elmə-biliyə olduqca böyük dəyər verdiyi halda İslam əhlinin bu qədər cahili, avamı, mövhumatçı zavallıları haradandır, İlahi? Bütün bəlaların kökündə cahilliyin, savadsızlığın, fanatizmin və bu kimi geridə qalmışlıqların durmasını anlamaq çoxmu zordur? Nə vaxta qədər kəmfürsət və hiyləgər düşmən İslam əhlinin bu biçarə, miskin durumundan məharətlə istifadə edib "öz daşını öz başına salacaqdır" axı? İslami dəyərlərə heç bir aidiyyəti olmayan "İslam Dövləti" Ankara qətliamı münasibətilə təbrik bəyanatı yayıb: "Allahım, ölülərin sayını artır" (haberler.com.tr). İnsanlığın bu dərəcədə iflasa uğramasından sonra deməyə söz tapmağa adam çətinlik çəkir...

... Gələcəkdə daha gözəl, firəvan və rahat həyat tərzi sürəcəkləri düşüncəsiylə satqın ruhlu avamlar öz ölkələrini düşmən fitvası ilə viran qoyurlar. Daha deyən yoxdur ki, ey zavallılar, məsələn, sosial baxımdan heç bir problemi olmayan, formalaşmış bir ölkə olan Liviya kimi Yer üzünün nağıl dövlətini də heç dağıtmaq olardımı? Güya Qəddafini devirib, ABŞ və ya bir başqası Liviyanın sərvətlərini sizlərə peşkəşmi edəcəkdi? Qəddafi diktator olsa da, hakimiyyəti qeyri-demokratik yollarla əldə saxlasa da, ölkənin iqtisadi rifahı, əhalisinin güzaranı üçün nələr etməmişdi? Sözün həqiqi mənasında, Liviya vətəndaşlığı Allahın bir lütfü deyidimi? Ancaq liviyalılar "saydığını sayana qədər", demokratiyanın "keşikçiləri" başqa şeylər saydılar və elə planlar qurdular ki, dağıtdıqları ölkə qiyamətə qədər çətin bir də özünə gəlsin!

**P.S. Elə bir qaynar dövrdə yaşayırıq ki, daha "məmə deyəndən, pəpə yeyənə", naxırçısından aliminə qədər hər kəs "siyasətçi" olubdur. Bu günlərdə məclislərdən birində dünyada cərəyan edən prosesləri müzakirə edən soydaşlarım bütün proseslərə öz "dəyərli" münasibətlərini bildirib, bəzisi ABŞ-ı, bəzisi Rusiyanı, bəzisi Türkiyəni və s. ölkələri günahkar çıxardılar, baş alıb gedən kütləvi savadsızlığı, cahilliyi isə qınayan olmadı...**



Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

# DÜNYANIN GEOSİYASİ XƏRİTƏSİNİN YARADILMASINDA RUSİYANIN CANFƏŞANLIĞI

**Sovet İttifaqının çökməsi ilə Soyuq müharibənin başa çatmasını güman edənlər II Dünya müharibəsindən sonra Qərb dünyası ilə Moskva arasında yaranmış uçrumun dərinliyini və genişliyini nəzərə almadıqlarını etiraf etməlidirlər. Son bir neçə ildə dünyanın siyasi arenasında cərəyan edən böyük maraq çəkişmələri bu müharibəyə daha da qloballaşma rəngi verməkdədir. Bir-birinə əks iki cəbhədə qütbləşmiş meqamaraqların pərdəarxasına aydınlıq gətirmək geniş ictimayyət üçün də maraqlı olardı.**

Sentyabrın son günündə bütün dünyanın diqqəti iki hegomon dövlətin – Rusiya Federasiyası və ABŞ-ın dövlət rəhbərlərinin Nyu-Yorkda baş tutacaq görüşünə kilidlənmişdir. Vladimir Putin və Barak Obamanın görüşündən sonra dünyada baş verən hadisələrin sonrakı axarının hansı formada şəkillənəcəyinə necə təsir edəcəyi baxımından böyük əhəmiyyət kəsb edirdi. Hər iki prezidentin təkbətək görüşündən öncə onların BMT-nın Baş Assambleyasının tribunasından bütün dünyaya səslənmələrini qarşılıqlı ittiham notları müşayət edirdi. V. Putin başda ABŞ olmaqla onun müttəfiqlərinə eyham vuraraq, dünyada baş verən son hadisələrə, ölkələrarası diplomatiyanın siyasi böhrana düşməsinə, ayrı-ayrı ölkələrdə rəngarəng inqilabların həyata keçirilməsinə görə Qərb dünyasını yerdən yerə vuraraq məsuliyyəti Vaşinqtona tuşladı. B. Obama isə öz növbəsində Rusiyanı Ukrainanın suverenliyi və ərazi bötövlüyünü pozmaqda ittiham edərək, dünyanın bu təcavüz qarşısında susmayacağını vurğuladı.

Bununla da prezidentlərin nəzərdə tutulmuş görüşündən hal-hazırda dünyadakı siyasi gərginliyin yumşaldılması yolunda pozitiv nəticə gözləmək çətin idi. Lakin prezident Obama Suriyada baş verən silahli toqquşmaların həll edilməsində istənilən dövlətlə əməkdaşlıq edəcəklərini qeyd etsə də, bu siyasi mesaja Putinin kinayəli cavabı gecikməmiş, o, Obamanı "kübar" adlandıraraq, Rusiyanın Suriyadaki hərbi əməliyyatlara biləvasitə qoşulması üçün Vaşinqtondan "icazə" almağa ehtiyacı olmadığına işarə etdi. Yəni prezidentlərin görüşünün gərgin keçəcəyi əvvəlcədən bəlli idi. Elə bu səbəbdən də görüşün reqlament müddətinin 55 dəqiqə nəzərdə tutulmasına baxmayaraq, o, iki saatadək uzandı. Görüşdə ABŞ tərəfi Ukraynanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəklədiyini və sözügedən problemin həll edilməsi yolunda qəbul edilmiş Minsk razılaşması şərtlərinin reallaşması üçün zamanın gərəkli olduğunu vurğuladı. Suriya məsələsində isə Moskva ilə Vaşinqtonun fərqli mövqe tutmasına baxmayaraq, bölgədə həyata keçiriləcək əməliyyatlar zamanı hərbi gərginliyin yaranmaması üçün tərəflərin ordusunun bir-birini məlumatlandıracaqları barəsində razılaşma əldə edildi.

Qeyd edək ki, Ukrainanın şərqində baş vermiş məlum münaqişədən sonra Rusiya ilə başda ABŞ olmaqla Qərb dünyası arasındakı münasibətlər kəskin şəkildə pozulmuş, Vaşinqton və onun müttəfiqlərinin Rusiyaya qarşı tətbiq etdikləri çoxsaylı sanksiyalar nəticəsində Rusiya iqtisadiyyatına külli miqdarda zərər dəymişdir. Nyu-Yorkdan qayıdar-qayıtmaz Putinin Suriyada İŞİD-in mövqelərinə hava zərbələri endirmək əmri verməsini bundan sonra Rusiyanın qaynar nöqtələrdə "müşahidəci" qismində qalmayacağına işarə kimi dəyərləndirmək olar. Yəni Moskva özünün hərbi gücünü və diplomatik iradəsini ortaya qoyaraq, dünyada hegomon imicini bərpa etmək niyyətindədir. Bir neçə gün bundan öncə İŞİD-lə mübarizə adı altında Rusiya bölgə dövlətləri olan Suriya, İran və İraqla birlikdə koordinasiya mərkəzi yaratmaqla Yaxın Şərq regionunda sözü keçən "oyunçu" rolunda beynəlxalq arenaya geri qayıtdı. Beləliklə də Moskva itirdiyi mövqelərini Qərbin əlindən geri aldı.

**Bir çox ekspertlər baş tutan tarixi görüşdən Putinin qalib tərəf kimi çıxdığını qeyd edirlər. Çunki, son günlərdə Rusiyanın bütün müstəvilərdə sərgilədiyi siyasət və həyata keçirdiyi hərbi əməliyyatlar bunu deməyə əsas verir. Bəs ABŞ və onun müttəfiqlərinin mövqelərinin zəifləməsinə nə səbəb oldu? Hal-hazırda Vaşinqtonun avropalı tərəfdaşlarını təngə gətirən qaçqın problemi və onların milyardlarla dollar zərərə uğraması, gələcəkdə köhnə qitə ölkələrinin uzun əsrlər boyu formalaşmış demoqrafik balansında ehtimal oluna biləcək radikal dəyişikliklər və sair buna bənzər digər səbəblər indiki zaman kəsiyində Qərb dünyasının ziyanına işləyir. Moskva isə bu durumdan məharətlə istifadə edərək, hadisələrin axarını öz xeyrinə çevirə bildi. Nə vaxtadək?..**

# GÜRCÜSTAN QANUNUN ALİLİYİ İNDEKSİNDƏ 19 PİLLƏ İRƏLİLƏYİB

Dünya bankı uzunmüddətli tədqiqatlarının nəticələrini nəşr edib ki, burada 6 indikatora uyğun olaraq, 200-dən çox dövlətin idarəetməsi qiymətləndirilir.

Gürcüstan ədliyyə nazirliyinin məlumatına görə, bütün indikatorlar üzrə Gürcüstanın göstəricilərinin artdığı qeyd olunub və son 18 il ərzində bütün kateqoriyalarda ən yüksək göstərici 2014-cü ildə əldə olunub.

Ədliyyə nazirliyinin məlumatına əsasən, qanunun aliliyi İndeksində Gürcüstanın faiz göstəricisi 2014-cü ildə 64,4% olub. 2012-ci ildə bu göstərici 54,5% təşkil edirdi. 2012-ci ildən sonra Gürcüstanın mövqeyi 19 pillə yaxşılaşıb və o, 130 dan artıq ölkəni, o cümlədən də Rumıniya, Montoneqro, Makedoniya, Serbiya, Bosniya və Hersoqovina, Albaniya, Türkiyə, Moldova, Rusiya, Ukrayna, Belarus və Ermənistanı geridə qoyub.

Dünya bankının araşdırmaları onlarla nüfuzlu mənbənin və beynəlxalq təşkilatın hesabatlarına, həmçinin minlərlə ekspertin, dünya miqyasında tanınan özəl və qeyri-hökumət təşkilatlarının mülahizələrinə əsaslanır.

# GÜRCÜSTAN İQTİSADİ AZADLIQ REYTİNQİNDƏ 11-Cİ YERİ TUTUR

Gürcüstan reytinqdə 7.83 balla ABŞ, Finlandiya, Danimarka, Norveç, Almaniya kimi ölkələri qabaqlayır. 2015-ci ilin iqtisadi azadlıq haqqında hesabatını Fraser institutu hazırlayıb.

Məruzədə bütün ölkələr üçün açıq olan 2013-cü ilin rəsmi məlumatlarının mənzərəsi canlandırılıb, 157 ölkə üçün iqtisadi azadlıq indeksi verilib. Hesabat 2 illik müddətin iqtisadi azadlığına qiymət verir.

Maraqlıdır ki, 2012-ci ildə Gürcüstan 7.78 balla 14-cü yeri tuturdu.

2013-cü ildə əvvəlki illərlə müqayisədə Gürcüstanın mövqeyi bir çox istiqamətlərdə yüksəlib. Mülkiyyət hüququnun qorunması və hüquq sisteminin yüksəlişi xüsusilə diqqətəlayiqdir. Ticarət azadlığı nöqteyi-nəzərindən də yüksəliş göz qabağındadır. Göstərilən indeks ölkədə siyasətin və təsisatların iqtisadi azadlığa nə dərəcədə uyğun gəlməsini də qiymətləndirir.

Dünya miqyasında iqtisadi azadlıq keçən il 6,84 baldan 6,86 bala yüksəlib. Maksimum bal isə 10-dur. Honkonq reytinqdə birincidir, Sinqapur, Yeni Zelandiya və İsveçrə onu təqib edir. Reytinqin sonunda Anqola, Mərkəzi Afrika Respublikası və Zimbabve yer alır.

Məruzədə 157 ölkə və ərazinin iqtisadi azadlığı müəyyənləşdirilir, siyasəti və təsisatları təhlil olunur. Məlumatlar aydın göstərir ki, iqtisadi azadlıq həyat səviyyəsinin və əhalinin rifahının daha da yüksəlməsinə aparır.

# "ROBİN QUD İNDEKSİ"NƏ GÖRƏ, GÜRCÜSTAN 11-Cİ YERDƏDİR




"Robin Qud indeksi"ndə Gürcüstan 11-ci yeri tutur. "Bloomberq"in nəşr etdirdiyi indeksə görə, Gürcüstanın yeganə milyarderi Bidzina İvanişvilinin varidatı 6 milyard dollardan ibarətdir. Əgər bu sərvət Gürcüstanın kasıb əhalisi arasında bərabər şəkildə bölünsə, hərəyə 13756 dollar düşər.

Bununla bərabər "Robin Qud indeksi"nin məlumatına əsasən, ölkədə adam başına düşən ümumi daxili məhsul 3699 dollar təşkil edir.

"Əgər Gürcüstanın ən varlı adamı milyarder Bidzina İvanişvili öz sərvətini Gürcüstanın kasıb əhalisi arasında bərabər şəkildə bölsə, hərəyə 13756 dollar düşər", – "Bloomberq" məlumat verir.

# GÜRCÜSTAN İNTERNETƏ GİRİŞ ÜZRƏ 85-Cİ YERİ TUTUR

Gürcüstan əhalisinin 48%-i İnternetə qoşula bilir. Bu barədə Beynəlxalq elektronrabitə ittifaqı "Genişzolaqlı rabitənin vəziyyəti" adlı yeni məruzəsində məlumat verib. Məruzəyə görə, Gürcüstan dünyada 85-ci yeri tutur. Inkişaf etməkdə olan ölkələr arasında Gürcüstan 41-ci yerdədir. Əhalinin hər 100 nəfərinin Internetə qeyd olunmuş girişdən istifadə göstəricisinə görə, Gürcüstan 12,2 göstərici ilə 71-ci pillədədir. İnternetə mobil girişdən istifadəyə görə, Gürcüstan 111-ci yeri tutur. Reytinq 2014-cü ilin göstəriciləri əsasında hazırlanıb.

İnternetdən istifadəyə görə Rusiya 44-cü yerdədir. Rusiyada əhalinin 70,5%-nin İnternetə giriş imkanı var. Əhalinin Belarusda 59%, Qazaxıstanda 54%, Azərbaycanda 61%, Ermənistanda 46%, Özbəkistanda 46,3%, Ukraynada isə 43,4%-nin İnternetə giriş imkanı var. İnternet istifadəçilərinin sayına görə, üç Avropa dövləti – İslandiya, Norveç və Danimarka liderlik edir.

Məruzəyə görə, dünyada dörd milyarda yaxın insanın İnternetə giriş imkanı yoxdur. Hazırda dünya əhalisinin yalnız 43%-i və ya 3,2 milyard nəfəri şəbəkəyə daxil ola bilir. Ötən il isə bu göstərici 2,9 milyard nəfər idi.

# İQTİSADİ ARTIM SÜRƏTİNƏ GÖRƏ GÜRCÜSTAN 127-Cİ YERİ TUTUR

Beynəlxalq Valyuta Fondu üzv ölkələrin iqtisadi proqnozlarını yeniləyib və Gürcüstan üçün 2%-lik iqtisadi artım proqnozunu qüvvədə saxlayıb.

BVF-nun üzvü olan 188 ölkə arasında Gürcüstan 127-ci yeri tutur. Qonşu ölkələrdən Azərbaycan (4%), Türkiyə (3%) və Ermənistan (2,5%) Gürcüstanı qabaqlayır.

Fondun məlumatına görə, dünya iqtisadiyyatının artımı 3,1% təşkil edir. Ən yüksək iqtisadi artım Papua Yeni Qvineya (12%), Efiopiya (8,7%) və Türkmənistanda (8,5%) proqnozlaşdırılır. Ukraynada iqtisadiyyat 9% azalacaq. Inkişaf etmiş ölkələr arasında ən yüksək iqtisadi artım İrlandiyada (4,8%) və İslandiyada (4,8%) gözlənir. İqtisadi azalma bu ölkələrdən yalnız Yunanıstanda (-2,3%) proqnozlaşdırılır.



# GÜRCÜSTAN QRİP ƏLEYHİNƏ 10 MİN PEYVƏND ALIB



Xəstəliklərə nəzarət və ictimai sağlamlıq Milli mərkəzindən bildirilib ki, Gürcüstanın qrip əleyhinə aldığı 10 min vaksin oktyabrın 15-dən 31-dək mərhələlərlə bölgələr üzrə paylanacaq.

Mərkəzdə məlumat veriblər ki: "Gürcüstana gətirilən vaksinlər Fransa və Hollandiyada istehsal olunub. Bütün bu vaksinlər Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən tövsiyə olunub".

ÜST ilk növbədə xroniki xəstələrin, yaşlıların, hamilələrin, tibb işçilərinin, 6 aylıqdan 2 yaşadək uşaqların, sığınacaqlarda yaşayanların peyvənd olunmasını tövsiyə edir.

Dövlət proqramı çərçivəsində 18 yaşınadək xroniki xəstələr (diabet, dializ), sığınacaqlarda yaşayan uşaqlar və yaşlılar və onların xidmət personalı, tibb müəssisələrinin qəbul, təcili yardım, reanimasiya, dializ şöbələrinin və ictimai sağlamlıq mərkəzlərinin heyəti qrip əleyhinə pulsuz peyvənd oluna bilərlər.

Ölkə əhalisinin qalanı isə qripə qarşı peyvəndi öz arzularına görə, ölkənin bütün tibb müəssisələrində vurdura bilərlər. Vaksinin qiyməti 25 laridir.

Mərkəz qripin qarşısını almaq üçün əlləri tez-tez yumağı məsləhət görür. Xəstəliyin əlamətləri (yüksək hərarət, öskürək) meydana çıxdıqda ictimai yerlərdən uzaq durmaq, mənzili tez-tez havalandırmaq, ümumi istifadədə olan yerlərin səthini nəm əski ilə təmizləmək lazımdır.

# ÖLKƏMİZDƏ VƏRƏMİN MÜALİCƏSİ MƏCBURİ OLACAQ

Oktyabrın 5-də Gürcüstan parlamentinin səhiyyə və sosial məsələlər üzrə komitəsində "Vərəmə nəzarət haqqında" qanun layihəsinin müzakirəsi keçirilib. Komitə sədri Dimitri Xundadze belə izah edib ki, qanun layihəsindəki yenilik "könülsüz müalicə" anlayışıdır.

Qanun layihəsinə uyğun olaraq, əgər pasiyent vərəmin müalicəsi ilə əlaqədar milli tövsiyyələri yerinə yetirmirsə, onda o, bir neçə xəbərdarlıqdan sonra "könülsüz müalicə" kateqoriyasına aid edilərək, müalicə üçün təcrid olunurlar.

"2012-ci illə müqayisədə ölkədə vərəm xəstələrinin sayının azalmasına baxmayaraq, Gürcüstanda qeydə alınmış rezident, daha doğrusu vərəm dərmanlarına dözüm göstəriciləri həyacanlıdır. Müəyyən səbəblər nəticəsində onlar müalicəni dayandırırlar və infeksiyanın yayılmasında təhlükəli olurlar. Bizim məqsədimiz onları tam müalicə etmək və müvafiq olaraq cəmiyyəti təhlükəli xəstəlikdən qorumaqdır. Əvvəlki tənzimləmə bunu təmin etmirdi", – Xundadze bəyan edib.

Qanun 2017-ci ildən fəaliyyətə başlayacaq və onun həyata keçirilməsi üçün bütün xərcləri tamamilə dövlət qarşılayacaq.

# ÖLKƏMİZDƏ CİNAYƏTKARLIQ 4,5% AZALIB

DİN-nin məlumatında bildirilib ki, 2015-ci ilin yanvar-avqust aylarında Gürcüstanda 23,5 mindən artıq cinayət törədilib. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 4,5% azdır.

Ilin əvvəlindən ölkəmizdə ümumi cinayətlərin 13,3 mindən artığının üstünü açmaq mümkün olub. Bununla da cinayətilərin üstünün açılması 56,5% təşkil edib.

Yalnız avqust ayında Gürcüstanda 3,4 min cinayət baş verib ki, bu da keçən ilin eyni dövründəkindən 3% azdır.

Gürcüstan DİN-nin analitik-informasiya departamenti cinayət statistikasını hər ay elan edir.

# ÖLKƏMİZDƏ ODLU SİLAH ƏLDƏ ETMƏYİN YENİ QAYDALARI FƏALİYYƏTƏ BAŞLAYACAQ

Odlu və qaz silahları almaq istəyən vətəndaşlar 2015-ci il noyabrın 1-dən etibarən Gürcüstan DİN-nin xidmət agentliyində silahla davranış qaydaları üzrə imtahan verəcəklər.

Qısa lüləli, odlu müdafiə silahları, qaz silahları, idman və ov silahları əldə etmək istəyənlər imtahan verəcəklər. Yalnız imtahanları uğurla verən vətəndaşlar silahı qeydiyyatdan keçirə biləcəklər.

Öz silahlarını 2015-ci ilin noyabrın 1-dək qeydiyyatdan keçirən vətəndaşlar imtahandan azad olacaqlar. Silah sahibləri yeni silah əldə etdikləri təqdirdə mütləq testdən keçəcək, sahib olduqları silahın eynisini aldıqda isə imtahanlardan azad ediləcəklər.

İmtahanları vermək üçün DİN-nin xidmət agentliyinə psixi sağlamlıq haqqında arayış, şəxsiyyət vəsiqəsi və silahın alınmasını təsdiqləyən çek təqdim olunmalıdır.



# 2016-CI İLDƏ PENSİYALARIN VƏ SOSİAL YARDIMLARIN ARTIMI GÖZLƏNİLMİR

2016-cı ilin büdcəsində pensiya və sosial yardımların artırılması nəzərdə tutulmayıb. Gürcüstan maliyyə nazirinin müavini Qiorqi Kakauridze belə bəyan edib.

"Xatırlayırsınızsa 2015-ci ilin büdcəsi keçən ilin oktyabr-noyabr aylarında planlaşdırılmışdı. Həmin dövrdə iqtisadiyyatın artımı kifayət qədər yüksək idi, ümumilikdə regionda bu günkü kimi mürəkkəb vəziyyət yox idi. Gürcüstan iqtisadiyyatının belə imkanı olmadığından, ümumilikdə iqtisadiyyat bu imkanı verməyindən sosial xərclər yeni öhdəliklərlə yüklənməli deyil.

Ona görə də pensiya və sosial yardımlar Gürcüstan iqtisadiyyatının yüksəlişi nəzərə alınmaqla mərhələ-mərhələ həyata keçirilməlidir", – Kakauridze bəyan edib.

Lakin müxalifətdə olan Milli Hərakat Partiyasının nümayəndələri pensiyaların 50 lari artırılmasının mümkünlüyündən bəhs edirlər.

Afayət AFİQ



# YAĞIŞLI DÜŞÜNCƏLƏRDƏN SÜZÜLƏN SÖHBƏT

**Şair yağış yağarkən cuşa gəlib ən dolu misralarını sərf edirdi. Ən duyğulu, ən coşqulu şerlərini şairlər məhz yağış yağarkən yazırdılar. Ən gözəl sözlər də elə yağış yeri sevindirəndə söylənirdi. İndi də belədir. Təbiətin yağış adlı hadisəsi hamımızın əhvalında bu və ya digər şəkildə dəyişiklik yaratmağı bacarır. Sözsüz ki, müxtəlif mənalarda.**

Qocaların dilindən salmadığı bir söz olurdu: – Yağır, yerinə-yurduna yağır. Əminəm ki, heç də hər zaman yerinə-yurduna yağmır. Bəzən arzulara, bəzən yarım qalmış işlərə yağır. Hələ bu harasıdır, elə bil qarnıma yağır deyənlər də az deyil.

Son günlərdə onsuz da qapısını payız qayğıları, qış xofu kəsən əhalinin qapısına bir həftədir dayanmadan yağış da dirənib. Bu, hər yerdə hiss olunur. Təkcə palçıqlı küçələrdə və ya gölməçələrdə çimib daranan göyərçinlərdə deyil, həm də insanların sifət ifadəsində hiss olunur. Məmləkətin insan mənzərələri yağışlı havada kifayət qədər rəngarəng, kifayət qədər kəskin və miskin olur. Yağış yağarkən həyat hər zamankından biraz daha canlı olur, yaşamın ritmi dəyişir. Bəzən müsbət, bəzən isə mənfi istiqamətdə. Yağış cücərtilər üçün əvəzedilməz fürsətdir, bunu hamımız yaxşı bilirik. Mücərrəd və ya real yağış hər şeyi cücərdir, boy atmasına təkan verir. Buraya toxumlar da, insanlar da, duyğular da, problemlər də daxildir.

Bəli, təbiətin yağış adlı hadisəsi, bizi ya xəyalən, ya da gerçəkdə tamamilə başqa dünyalara apara bilir. Nəzərə alsaq ki, bu gün həyatımıza reallıqlar daha çox təsir göstərir, o zaman real hadisələrdən danışmaq daha xoş olar, ya da daha acı.

Kiçik bir hadisə nəql edəcəm, bir neçə gün əvvəl elə yağış yağarkən baş vermiş bir hadisə.

70-75 yaşlarında bir qoca qadın. Harada gördüyümü deməyəcəm, deyək ki, mən onu kəndimizdə gördüm, siz də başqa yerdə görə bilərsiniz. Dodaqları ilin hələ bu vaxtında gömgöy olub, əlləri əsir, gözləri haray çəkirdi. Kimsəyə dərdini deyə bilmədiyi olduqca aşkar idi. Utanır, basılır, çalmasından kirpiklərinə süzülən damlaların arasından ya dua edirdi, ya da bilmirəm nə. Avtobusa mindi, nənə. İslanmış nənə. Bir gənc qız qalxıb qocaya yer vermək istəyirdi. Bəli, o an, heç vaxt yadımdan çıxmayacaq iki qadın sifəti yarandı gözümün önündə. Biri gənc qızın qolundan yapışıb aşağı dartan, "dərdi sənəmi qalıb, bu palçıqlıya yer verməsən olmaz " - deyə qışqıran, qızın yanında ya ana, ya da qaynana missiyasını yerinə yetirən qadının, digəri də qəhrəmanım olan yaşlı nənənin...

Sizə bir şey də deyəcəm, yəqin edirəm ki, mənimlə razılaşacaqsınız. Şəhərdə görk olmaqla kənddə görk olmaq bir deyil. Kənd dəlisini də, ağıllısını da, zənginini də, kasıbını da yaxşı tanıyır. Kənd ağıllısının boynunu çox bəslədiyi kimi, dəlisini də çox əzişdirir, çox ağladır. Yağış bir çox problemləri həll edir, bir çoxunu yenidən yaşıllandırır. Bunu az əvvəl də söylədik. Lakin, yağış ki var ha, o Allahın suyu, bax o insanların sir-sifətini yumaqla məşğuldu. Nə qədər çox yağsa bir o qədər çox sifət çıxardar altından. Nə qədər bol yağsa bir o qədər çox palçıq bulaşdırar könüllərə. Beləcə içindəki qəzəbini, havaya, torpağa, buluda olan hirsini, yağış basmış yoncasının intiqamını qabağına çıxan ilk insandan alan, zəhərini ən zəif gördüyünə axıdan "insan"ların sayı da artır. Guya ki, bununla problem bitəcək, guya həyatlarına enli balaqlı bir göy qurşağı sallanacaq. Sirkə nə qədər tünd olsa, öz küpünü sındırarmış. Nə yazıq ki, o insanlar bunun fərqində deyillər. Danışdıqlarımız üçünsə yağış sadəcə bəhanə idi. Günün qızmarında da, küləyin üz cıranında da, belə hallar boğazdan aşır. Görənə minnət. Ömrümüzü kinlə, hirslə, qəzəb dolu sifətlərlə başa vururuq. Halbuki, başqa cür də ola bilər. Bütün dərdlərə, tasalara baxmayaraq, həyat başqa rəngdə ola bilər... Qara qəpik belə xərcləmədən. Bu qədər...

**P.s. O nənəyə yer verdilər, ayaq üstə qalmadı, xoruz olmasa da sabah öz gücünə birtəhər açılır...**



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

## İSLAM ALƏMİNİN YENİ İLİ VƏ MƏHƏRRƏMLİK

**Müsəlmanlar üçün bir dönüş nöqtəsi olan hicrət, İslam aləmində də yeni bir dövrün başlanğıcı olmuşdur. Hz. Ömərin xəlifəliyi dövründə Hz. Əlinin təklifi ilə hicrətin reallaşdığı gün, hicri təqvimin başlanğıcı sayılmışdır. O gündən etibarən də İslam aləmində 1 Məhərrəm hicri təqvimin başlanğıcı olaraq qəbul edilmişdir.**

Tarix boyu Məhərrəm ayında bir çox hadisələr baş vermişdir. Onları bu cür sıralamaq olar:

• İlk insan və ilk Peyğəmbər Hz. Adəmin tövbəsi bu ayda qəbul olunmuş;

• Hz.Nuhun qövmünün başına gələn tufan sona çatmış və gəmisi bu ayda Cudi dağına oturmuş;

• Hz. İbrahim Aşura günü doğulmuş, İlahlıq iddiasında olan Nəmrudun atəşindən bu ayda xilas olmuş, Allah (c.c.) ona yolun doğrusunu bu gündə göstərmiş;

• Övlad ağrısı və həsrətiylə qovrulan Hz.Yaqubun gözləri bu gündə görməyə başlamış, bu ayda oğulu Hz. Yusifə qovuşmuş, Hz. Yusif qardaşlarının atmış olduqları quyudan bu ayda çıxardılaraq Misir Əzizi tərəfindən dövlət xəzinəsinin başına gətirilmiş;

• Səbr və dözüm qəhrəmanı Hz. Əyyub bu ayda xəstəliyinə şəfa tapmış;

• Hz. Musa bu ayda doğulmuş, özünə bu ayda bir möcüzə lütf edilmiş, qövmüylə birlikdə Qırmızı Dənizi keçmiş və onu təqib edən fironun ordusuyla birlikdə suda boğulması bu ayda baş vermiş;

• Hz. Davudun tövbəsi bu ayda qəbul edilmiş;

• Hz. Süleymana bu ayda mülk (hökmranlıq) verilmiş;

• Hz. Yusif balığın qarnından bu ayda xilas olmuş;

• Hz. İsa bu ayda doğulmuş və yəhudilərin şərrindən bu ayda səmaya yüksəldilərək xilas olmuş;

• Hz. Məhəmmədin (s.ə.s.) keçmiş və gələcək bütün günahlarının bağışlanılacağına dair özünə Allah tərəfindən təminat bu ayda verilmişdir.

Bütün bu hadisələrin yanında kədərli bir hadisə də vardır. Sevimli Peyğəmbərimizin "Cənnət uşaqlarının əfəndiləri" deyə təriflədiyi, Hz. Əli ilə Hz. Fatimənin ciyərparəsi olan Hz. Hüseyn və 72 yoldaşı, hicri 61-ci ildə məhərrəm ayının 10-da aşura günü (miladi 10 oktyabr 680-ci il) siyasi ehtiraslar uğrunda Kərbəlada əvvəl susuz buraxılmış, ardından da vəhşicəsinə şəhid edilmişdir. Hz. Hüseynin bu gündə şəhid edilməsi səbəbiylə müsəlmanların ortaq yaddaşında artıq bu üzücü bir hadisə olaraq xatırlanır.

Ancaq bu nöqtəni əsla gözdən qaçırmamalıyıq:

Hz. Hüseynə rəva görülən bu rəftar, nə qədər haqsız və nə qədər kədərli olursa olsun, müsəlmanlar arasında ayrılıq və hüsumətə səbəb olmamalıdır. Tarixin müəyyən dövründə reallaşan bu kədərli hadisəni, yenə tarixin hakimliyinə əmanət etmək və duyğulardan çox, ağılla mühakimə etmək lazımdır. Çünki indiki vaxtda müsəlmanların, hər zamankından daha çox birlik və bərabərliyə ehtiyacı olduğu inkar edilə bilməz.

Kərbəla hadisəsinin xatirəsini yad etmə səbəbi ilə yas günü hesab edilən 10 Məhərrəmdə sərgilənən fəaliyyətlərdə, bəzi müsəlmanlar, "öz-özünə işgəncə" deyilə biləcək tətbiqlər sərgiləməkdədirlər. Halbuki bu cür tətbiqlər İslama ziddir. Yas tutmanın da bir ölçüsü vardır və bu ölçünü Hz. Peyğəmbər (s.ə.s.) təyin etmişdir. İslamdan əvvəl cahiliyyə ərəbləri ölən kimsə üçün həddindən artıq dərəcədə yas tutar, ölünün yaxınları avazı çıxdığı qədər qışqırar, həyat yoldaşı özünü evə həbs edərdi və yuyunmazdı. Hətta peşəkar ağlayıcılar da tutulardı. Rəsulullah bu ənənəni: "Üzünə vuraraq, yaxasını cıraraq, cahiliyyə adətlərini davam etdirən bizdən deyil." (Buxari, Cenaiz, 36; II, 82) hədisi ilə ortadan qaldırmışdır.

Bəli, hz. Hüseyn hər bir müsəlmanın sevdiyi və örnək aldığı bir şəxsiyyətdir. Ancaq onun şəhidliyi üçün özünə əziyyət etmək, öz bədəninə xəsarət yetirmək İslamın tələblərinə uyğun gəlməyən bir hərəkətdir. Əgər belə bir hərəkət ediləcək olsa ilk öncə peyğəmbər üçün edilməlidir.

## BATUMİDƏ GÜRCÜSTAN MÜSƏLMANLAR İDARƏSİ MÜFTİLİYİNİN İQAMƏTGAHI AÇILIB

Oktyabrın 5-də Batumidə Gürcüstan müsəlmanlar idarəsi müftiliyinin iqamətgahının təntənəli açılışı olub.

Bir neçə ay əvvəl Gürcüstanın baş naziri İrakli Qaribaşvili yerli hakimiyyətə məscidin yaxınlığında yerləşən binanı müsəlman icmasına verməyi tapşırmışdı.

"Bu tarixi gündür. Mən xoşbəxtəm ki, mənim müftiliyim dövründə Gürcüstan müsəlman icması haqq etdiyi binanı aldı. Daha biz qonaq qəbul etməkdən utanmayacayıq", – Gürcüstan müsəlmanlar idarəsinin müftisi Beqlar Kamaşidze deyib.



Dördmərtəbəli binada müftinin iqamətgahından əlavə, qış tətilindən sonra fəaliyyətə başlayacaq mədrəsə, təhsil guşəsi və tədris ədəbiyyatı çap edən nəşriyyat da yerləşir.

## GÜRCÜSTAN PATRİARXLIĞI SOCAR ŞİRKƏTİNƏ MİNNƏTDARLIQ EDİB

SOCAR Gürcüstan ərazisində yerləşən kilsə və monastrların istifadə etdiyi təbii qazın xərclərini öz üzərinə götürüb.

Bununla əlaqədar Gürcüstan Patriarxlığı bəyanat yayıb. Bəyanatda deyilir: "SOCAR neft şirkəti və Gürcüstan Patriarxlığı arasında imzalanmış razılaşmaya əsasən şirkət xoş məramla Gürcüstan ərazisində yerləşən kilsə və monastrların istifadə etdiyi təbii qazın xərclərini təmin etməyi öz üzərinə götürüb. Bu razılaşmanın müddəti 2015-ci il noyabrın 1-də başa çatır, lakin SOCAR şirkətinin qərarı ilə o, 2015-ci il dekabrın 31-dək uzadılıb.

Qeyd edək ki, köməyin müddəti istisnasız olaraq Gürcüstan ərazisində fəaliyyət göstərən digər dinlər üçün də artırılıb.

Gürcüstan Patriarxlığı böyük köməyə görə, SOCAR-ın prezidenti cənab Rövnəq Abdullayevə və SOCAR Energy Georgia-nın baş direktoru cənab Mahir Məmmədova ürəkdən minnətdarlıq edir", – Patriarxlığın bəyanatında deyilir.

## 16 YAŞA ÇATMIŞ ŞƏXSLƏR YALNIZ MƏHKƏMƏNİN RAZILIĞI İLƏ NİKAHA DAXİL OLA BİLƏRLƏR

16 yaşa çatmış şəxslər yalnız məhkəmənin razılığı ilə nikaha daxil ola bilərlər. Bunun üçün hamiləlik və uşaq doğumu kimi üzrlü səbəblərin olması lazımdır. Gürcüstan xalq müdafiəçisi aparatının hazırladığı müvafiq qanun layihəsi artıq ölkə parlamentinin hüquq məsələləri üzrə komitəsində müzakirəyə çıxarılıb. Dəyişiklik Mülkü məcəlləyə və "Vətəndaş aktları haqqında" qanuna əlavə ediləcək.

Hazırda fəaliyyətdə olan qanuna görə, 16 yaşına çatmış şəxslər valideynlərin və ya qəyyumların əvvəlcədən verdiyi yazılı razılıq ilə nikaha daxil ola bilərlər. Onların razılığını və ya narazılığını almaq mümkün olmadığı təqdirdə, üzrlü səbəblər adlandırılan hallar olduqda məhkəmə nikaha icazə verə bilir. Parlamentdə müzakirə olunan qanun layihəsinə görə, 16 yaşına çatmış şəxslərin valideynlərinin və ya qəyyumlarının artıq belə hüquqları olmayacaq, qərarı yalnız məhkəmə qəbul edəcək.

## "ERMƏNİ SOYQIRIMI"NIN YALAN OLMASI BİR DAHA TƏSDİQLƏNDİ

Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) Böyük Palatasının "Doğu Perinçek İsveçrəyə qarşı" işi üzrə oktyabrın 15-də verdiyi qəti qərar İsveçrə mətbuatında böyük əks-səda yaradıb.

Ölkənin aparıcı mətbu orqanlarında məhkəmənin qərarı haqqında geniş məqalələr və dəyərləndirmələr yer alıb.

Məhkəmədə İsveçrəni təmsil edən Federal Ədliyyə İdarəsinin sözçüsü Folko Galli məhkəmə qərarını şərh edərək bildirib ki, təmsil etdiyi qurum məhkəmənin qərarını qəbul edir.

Federal Ədliyyə İdarəsinin yaydığı məlumatda bildirilir ki, İsveçrə ən geci 6 ay ərzində yekun qərarların üzv ölkələr tərəfindən icrasına nəzarət edən Avropa Şurasının Nazirlər Komitəsinə AİHM qərarının icrası mexanizmi barədə hesabat təqdim etməlidir. Hesabatda aydın göstərilməlidir ki, İsveçrə Doğu Perinçek işində yol verdiyi qanun pozuntusunun nəticələrini aradan qaldırmaq üçün hansı tədbirləri görüb və gələcəkdə oxşar halların qarşısını almaq üçün hansı addımları atacaq. Əgər 6 ay ərzində İsçevrə AİHM Böyük Palatasının yekun qərarının tam icra olunmasına nail olmazsa, o zaman nəzərdə tutulan icra mexanizminə dair "yol xəritəsi"ni təqdim etməlidir.

## GÜRCÜSTANDA SOCAR-IN QAZ ABUNƏÇİLƏRİNİN SAYI 10%-DƏN ÇOX ARTIB

2014-cü ildə SOCAR Georgia Gas tərəfindən ümumi uzunluğu 1100 kilometr olan qaz kəməri çəkilib, 34 min abunəçi qazlaşdırılıb.

2015-ci ilin səkkiz ayı ərzində abunəçilərin sayı 10,27% artaraq, 475 min 737 nəfər olub. 2014-cü ildə şirkət 378 min 778 abunəçiyə xidmət edib.

Ən yüksək göstərici 2013-cü ildə qeydə alınıb. Hesabat dövründə şirkətin abunəçilərinin sayı 218,3% artaraq, 2015261 nəfər olub.

SOCAR Georgia Gas-ın potensial və fəaliyyətdə olan abunəçilərinin sayı 2010-2015-ci illərdə 439,4% artaraq, 83449-dan 430304 nəfərə çatıb.

Şirkət energetika nazirliyi ilə razılaşdırılmış plana uyğun olaraq, Gürcüstanın qazlaşdırılmasını həyata keçirir.




SOCAR Georgia Gas qazlaşdırma proqramında 2008-ci ildən iştirak edir. Proqramın birinci mərhələsində 2008-2013-cü illərdə ölkə miqyasında 230 şəhər və kənd qazlaşdırılıb, 3,5 min kilometr qaz kəməri çəkilib.

Gürcüstan və SOCAR Georgia Gas arasında qazlaşdırma üzrə proqramın ikinci mərhələsinin həyata keçirilməsi haqqında memorandum 2013-cü ildə imzalanıb. Ikinci mərhələ 2013-2017-ci illəri əhatə edir.

Qazlaşdırma layihəsi 2017-ci ildə başa çatacaq.

# TOY ADƏTLƏRİMİZLƏ BAĞLI BƏZİ MƏQAMLAR

*Hər bir toplum, hər bir xalq minilliklərin o üzündən bu günümüzə gətirib çıxardığı spesifik adət-ənənələri ilə bir-birindən fərqlənir. Bu fərqlilik dünyanı monotonluqdan xilas edib, rəngarəng bir biçimə gətirir. Keçmişdən bu günə daşıdığımız adətlərimizdən biri də toydur. Məişət mərasimlərimiz içərisində toy öz fərqli xüsusiyyətləri ilə qabarıq şəkildə digərlərindən seçilir. Yarandığı əski zamanlardan ta indiki çağımızacan bu mərasim keçib gəldiyi tarixi dönəmlərin abu-havasını bu və ya digər dərəcədə yaşatmaqdadır. Biz qəsdinə durub araşdırmaq niyyətinə düşsək, toy mərasimində ibtidai təfəkkürün, bəsit-emprik dünyagörüşün izlərini, orta yüzilliklərin cəngavərlik ruhunu, politeizmin və monoteizmin əlamətlərini, yeni dövrün maddiyyata dayanan ruhunu, hətta texnoloji yeniliklərin detallarını müəyyənləşdirə bilərik. Biz bu araşdırmamızı davam etdirsək toy mərasiminin zaman-zaman dəyişən, yeniləşən obrazını gözlərimiz qarşısında canlandırmaqda da çətinlik çəkmərik. Istənilən mərasimin, o cümlədən də toy mərasiminin mövcud zamanın cildinə girməsindən təbii heç nə ola bilməz. Orasını da söyləyim ki, bu yazıda heç də toy mərasimini etnoqrafik yöndən, mifoloji-tarixi aspektdən araşdırmağı qarşıma məqsəd qoymamışam. Məqsədim bu mərasimin doğurduğu sosial-iqtisadi, mədəni-əxlaqi problemlərlə ilgili fikirlərimi bölüşməkdir.*

İlk öncə toyun bir ailə üçün, bir el-oba üçün böyük önəm daşıdığını, müstəsna bir hadisə mahiyyətində olduğunu qeyd etmək istəyirəm. Toyun bir el şənliyi, bir elin həyatında ictimai hadisə dəyərində olmasını vurğulamadan keçməyi düşünmürəm. Nədən ki, toy yeni bir ailənin yaranmasının başlanğıcıdır, yeni bir evin-ocağın təməl atma mərasimidir. Bundan əlavə toy mərasimi az qala bir elin elliklə həyata keçirmək istədiyi mədəni tədbirdir. Toy elin hər bir üzvünün həm aktyoru, həm də tamaşaçısı olduğu kütləvi tamaşa-teatrdır. Toy el qonaqlığı, ziyafətdir kimi bir tərifə də layiqdir. Toy elin sevinc mənbəyidir. Bu, toyun müsbət-pozitiv enerji qaynağı olmasını göstərir.Bu, qəlbimizdə xoş duyğular, xoş ovqat yaradır. Bundan sonra təsvirinə girişmək istədiyim müşküllərin, eybəcərliklərin siyahısını təqdim etməyim belə utandırıcıdır və utandırıcı olduğu qədər də düşündürücüdür.

Üzü payıza doğru toyların sayı artır. Əslində bunun özü də şərti bir bölgüdür. O üzdən ki, artıq istənilən fəsildə – lap elə qışın oğlan çağında, yayın qorabişirənində toy eləmək mümkündür. Niyə də olmasın, varlığa nə darlıq. Restoranların, şadlıq saraylarının yağışdan sonrakı göbələk kimi artdığı bir yerdə kefin istəyən fəsildə toy edə bilərsən. Toyları payızda keçirmək kimi bir ənənə keçmiş əyyamlarda mümkün idi. Qaşığın çömçədən böyük olduğu indiki zamanımızda heç kimə deyə bilməzsən ki, gəl, toyunu payızda elə, nədən ki, sözün yerə düşər, hörmətin beş paralıq olar.



Belə məqamda susmağın məsləhətdir, məndən demək, qalanını sən bilirsən.

Beş-on il qabağa qədər qohum-əqrabada ölən olardısa, toyu xeyli ertələyərdilər. Ölünün, onun ailəsinin xətir-hörmətini saxlayardılar. İndi belə şeylərə baxan kimdir, gözləyən kimdir? Mən də aylarla-illərlə ölən üçün yas saxlamağın əleyhinəyəm, bilirəm ki, ölənlə ölməzlər. Ancaq bir məsələ var ki, minillər boyu xalqın yaşatdığı adət-ənənənin üstündən xətt çəkmək olmaz, axı "örf var, adət var"? Hərdən eşidirsən ki, may ayında toy etmək olmaz, düşər-düşməzi var. Niyə olmaz axı may ayında toy etmək? Niyə onbeş-iyirmi il qabaq toy etmək olurdu, may ayında ailə quranlar xoşbəxt olurdu, indi olmaz? Kimdən soruşsaq ki, may ayında toy etməyə mane olan səbəb nədir? Bir adamdan düz əməlli cavab ala bilməyəcəyik. Uzağı "nə bilim belə deyirlər" kimi ümumi, heç nəyə yaramayan cavab eşidəcəyik. Daha məsələnin mahiyyətinə varmaq istəməyəcəyik ki, bəlkə elə may ayında edilən toy yaxşı bir zaddır, bəlkə may ayında evlənənlər daha xoşbəxt olurlar. Yox, biz bunu araşdırmaq istəməyəcəyik, elə may ayında toy etmək olmaz deyib, duracayıq. Heç fikirləşmək belə ağlımızdan keçməyəcək ki, bəlkə burada bir düşmən hiyləsi var, bəlkə hansısa məkrli düşmənimiz bu zəhrimarı bizim beynimizə yeridib. Və azacıq qafamızı işə salsaq görəcəyik ki, doğrudan da ortada bir düşmən barmağı var imiş, "may ayında toy etmək olmaz" fikri gedib qonşularımızın qondarma soyqırım sayaqlamalarına bağlanır. Deyim ki, qonşularımızın iddialarına görə, bu hadisə 1915-ci ilin 24 aprelində olub və qonşularımızın bu tarixdən "yas"da olduqlarını qəbul etsək, gərək 40 gün gözləyək ki, onlar "yas"dan çıxsınlar, biz də toyumuzu edib canımızı qurtaraq. İndi bir özünüz hesablayın, kitablayın, görün biz bununla nə edirik? Bununla biz düşmənimizə haqq qazandırmırıqmı, bununla biz onun suyu sovulmuş dəyirmanına su tökmürükmü? Indi bir özünüz deyin, biz qonşularımızın saxta tarixinə, bizi ittiham edən yalançı matəmlərinə yas tutmuruqmu? Deyək ki, onlar yalandan xəyallarında ölmüş bildikləri yaxınlarının yasını saxlayıb, matəm libası geyinib, qara bağlayırlar. Bəs bizə nə, biz niyə yasa batırıq? Bax, mən burasını bilmirəm.

Hərdən də qulağımız alır ki, ramazanlıqda toy etmək yaxşı deyil. Yenə eyni sual ortaya çıxır – niyə? Ay canım, bu harada yazılıb, bunu hardan oxuyubsan, kim deyib, kimdən eşitmisən? Yenə də eşidəcəyimiz qeyri-müəyyən cavabdan özgə heç nə olmayacaq. Sorğu-suala çəkdiyimiz adam uzaqbaşı mızıldanıb mənasız nələrsə söyləyəcək. Və sən də Məşədi İbad demiş "Tarixi-Nadir"i yarıyacan oxumuş biri olsan bu cavabı eşitməyinlə havalanıb, cin atına minəcəksən. Daha qarşındakına deyə bilməyəcəksən ki, ay zalım, Ramazan fəzilət dolu bir aydır, bu ay "on bir ayın sultanı"dır, bu ay bayram ayıdır. Bütün bunları deyə bilməyəcəksən. Nədən ki, qarşındakı özünü anlamış kimi göstərsə də, üzünü o tərəfə çevirəndə yenə də iki ayağını bir başmağa soxub deyəcək: "Ramazanlıqda toy etmək günahdır". Sən də bunu eşidib yana-yana qalacaqsan. Və qananlar üçün deyəcəksən ki, bu ayda toy etmək olar, hətta bu ayda toy etmək savabdır. Ramazan ayında toy etməyin, evlənməyin dini normalar daxilində edilməsi, toyun dinin buyurduğu şəkildə həyata keçirilməsi vacibdir. Vəssalam-şüttamam, daha burada başqa bir qadağa, yasaq, tabu yoxdur.

Düşünürəm ki, "mövzunun davamı olacaq" anonsu ilə artıq yazıya üç nöqtə qoymağın məqamıdır...

A. M. DƏLİVƏLOĞLU

Anar RAFİQOĞLU
anar.rafiqoglu@gmail.com



# HAMIMIZ SEVDİYİMİZ SAHƏDƏMİ TƏHSİL ALIRIQ?

**Sevindirici haldır ki, gənc soydaşlarımız arasında son illərdə təhsilə olan maraq getdikcə artır. Bunda, əlbəttə ki, bir neçə ildir ki, ali məktəblərə qəbul zamanı tətbiq olunan 1+4 proqramının da müstəsna rolu var. Belə ki, hələlik gürcü dilini kifayət qədər yaxşı bilməyən, amma ali təhsil almaq arzusunda olan bir çox gənclərimiz bu proqram vasitəsilə tələbə statusu qazanmaqda elə də çətinlik çəkmirlər. Ümidvarıq ki, həmin gənclərin əksəriyyəti təhsilini uğurla başa vuraraq, gələcəkdə dövlətimizə, millətimizə xidmət üçün hazır hala gələcəklər. Və ya ən azından dövlət dilini öyrənəcəklər. Onların bir çoxu hüquq, bəziləri səhiyyə, pedaqoji, ictimai-siyasi və bir çox başqa sahələrdə çalışacaqlar. Bəs sənət? Teatr, kino, musiqi, rəsm?! Bu sahələrin aqibəti necə olacaq? Gənclərimiz nədən bu sahələrə elə də maraq göstərmirlər?**

Sizcə, gənclərimiz arasında aktyorluq, musiqiçilik, rəssamlıq qabiliyyəti olanlar yoxdurmu? Əmin ola bilərsiniz ki, yüzlərlə belə gənclərimiz vardır. Sadəcə, əksər gənclər bu sahələrdə gələcək görmür, bəziləri isə ailəsinin, böyüklərinin istəyi nəticəsində məcburən başqa sahələrə üz tuturlar. Məcburiyyət qarşısında görülən işin isə, gələcək adına çox da böyük faydası olacağına adamın inanmağı gəlmir.

Zənnimcə, fikri-xəyalı teatrda, kinoda, musiqidə olan biri heç vaxt ciddi hüquqşünas, hakim və ya siyasətçi ola bilməz. Tam tərsi də keçərlidir. Hakim olmaq istəyən birindən də olsa-olsa həvəskar aktyor çıxa bilər. Əslində bu mövzuya daha əvvələr də toxunmuşam. Bu mövzuya qayıtmağımın səbəbi odur ki, dəyişən heç nə yoxdur. Bilənlər bilir, hal-hazırda Şota Rustaveli adına Tbilisi Dövlət Teatr və Kino Universitetində təhsil alan yeganə azərbaycanlıyam. Təsəvvür edin, burada çalışan insanların tələbə olaraq ən son gördüyü azərbaycanlılar 10 il əvvəl məzun olub. Və 10 il sonra mən qəbul olunmuşam. Bu 10 il ərzində soydaşlarımız arasında bir Allahın qulu teatr və kino sahəsində ali təhsil almayıb. Halbuki, Şota Rustaveli adına Tbilisi Dövlət Teatr və Kino Universiteti öz sahəsində sabiq SSRİ məkanında prestijli ali təhsil müəssisələrindən biridir. Artıq iki ildir həmin universitetin tələbəsiyəm, çalışmışam ən azından həvəsi olanları cəlb edib, buraya yönləndirim. Amma yenə də nə gələn var, nə də gəlməyə cəhd edən. Hətta Universitet rəhbərliyi bu yaxınlarda 1+4 proqramı çərçivəsində hər il Gürcüstan azərbaycanlıları üçün ayırdıqları 8 yeri, belə davam edəcəyi təqdirdə, ləğv edəcəklərini açıqladı.

Əlbəttə, bu vəziyyət sadəcə Teatr və Kino Universitetində belə deyil. Konservatoriyada və Rəssamlıq Akademiyasında da, demək olar ki, eyni vəziyyət hökm sürür. Təbii olaraq belə bir sual da ortaya çıxır, bu sahələrdə təhsil alıb, gələcəkdə ailəmizi necə dolandıracağıq? Və ya işlə təmin oluna biləcəyikmi? Bəlkə də qismən doğru yanaşmadır. Çünki bu gün sənətinə, istedadına güvəndiyim bir çox gənclər tanıyıram, hansılar ki, dolanışıq ucbatından xarici ölkələrə üz tutub, məcburiyyət qarşısında qətiyyən arzu etmədikləri işlərdə çalışırlar. Bu isə olduqca təəssüfləndirici haldır. Lakin hər kəs bu cür bəhanələrin arxasına sığınıb, bir kənara çəkilsə, zənnimcə, sənətdə hər hansı inkişaf gözləmək də xəyalpərəstlik olar. Bəzilərimiz fədakarlıq edib, daşın altına əlimizi qoymalıyıq. Unutmayaq ki, bu torpaqlar bir çox önəmli sənətkarlar yetişdirib. Ona görə də ümidsizliyə qapılmaq düzgün deyil. Gələcəkdə nələr olacaq, bilmək olmaz. Bəlkə də bir neçə il sonra teatr, kino, eləcə də digər sənət sahələri çox cazib hala gələcək. Çünki artıq bir çox ölkələr sənətdən eyni zamanda olduqca gəlirli bir biznes vasitəsi olaraq faydalanırlar.

**Son olaraq, əziz gənclərimizə üzümü tutub deyirəm ki, sizi xəyallarınızdan uzaqlaşdırmağa, ruhdan salmağa çalışanlara baxmayaraq, xəyallarınız uğrunda sonuna qədər mübarizə aparıb, öz istədiyiniz sahədə təhsil almağa çalışın.**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 oktyabr 2015-ci il
№009 (09)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## İKİNCİ TÜRK DƏ NOBEL MÜKAFATI ALDI



Yazıçı Orxan Pamukdan sonra daha bir türk də Nobel mükafatı alıb. 2015-ci il kimya üzrə Nobel mükafatını alanlardan biri türk Aziz Sancardır. Aziz Sancardan başqa bu mükafatıTomas Lindahl, Paul Mondrichl də alıb. Hər üç alim Nobel mükafatını hüceyrələrin zədələnən DNA-larını necə bərpa etdiyini və genetik yaddaşını necə qoruduğunu təsvir edən araşdırmaları sayəsində qazanıblar. Bu araşdırmalar xərçəng xəstəliyinin müalicəsində istifadə olunub.

ABŞ-ın Şimali Koralina Universitetində Biokimya və Biofizika fakultəsində müəllim işləyən Aziz Sancar xərçəngin müalicəsində “ritmik saat” adlı kəşfə imza ataraq dünyada tanınmağa başlamışdır.

Aziz Sancar 1946-cı ildə Mardində oxuma-yazma bilməyən ailənin 8 övladından biri kimi dünyaya gəlib. O, 1963-cü ildə İstanbul Universitetinin Tibb Fakültəsinə qəbul olunub, 1971-ci ildə universiteti bitirib. 1977-ci ildə ABŞ-ın Texas Universitetində doktorluq elmi dərəcəsini müdafiə edib. 1997-ci ildən ABŞ-ın Şimali Koralina Universitetinin Biokimya və Biofizika fakultəsində fəaliyyət göstərən Prof. Sancar bu günə kimi 300-ə yaxın elmi məqalənin müəllifidir. Bu məqalələrə istinad edilərək 12000-dən çox məqalə yazılıb.

Sancar Amerika Milli Elmlər Akademiyasına üzv olan 3 türk alimindən biridir.

Əziz Sancar həm də xanımı ilə birlikdə Chapell Hill-də Karolina Türk evi açıb. Burada o, hər il Türkiyədən Karolina Universitetinə magistratura təhsili üçün gələn 4 həmyerlisini ev ilə təmin edir. Eyni zamanda qısa müddətə gələn tədqiqatçıları da burada yerləşdirir.

Əziz Sancara Nobel mükafatı dekabrın 10-da təqdim olunacaq.

## ALMAN HƏKİMLƏR GÜRCÜSTANLI SİAM ƏKİZLƏRİNİ UĞURLA AYIRDILAR

Kölndəki uşaq klinikasında alman həkimlərinin Gürcüstandan olan altıaylıq siam əkizlərini ayırmaq üçün həyata keçirdikləri əməliyyat uğurlu alınıb.

Yayılan məlumatlara görə, əməliyyatın dəyəri 81 min avro olub və bu vəsait ianə toplamaq yolu ilə yığılıb.

Hazırda qızların – Tamar və Tebrolun həyatları üçün heç bir təhlükə yoxdur, onlar özlərini normal hiss edirlər.

KİV alman həkimlərinin sözlərinə istinad edərək bildirir ki, əməliyyat beş saat davam edib. Xəstəxananın uşaq cərrahiyyə şöbəsinin baş həkimi Tomas Bemers zəmanət verib ki, qızlar tamamilə sağlam olacaq və normal həyat yaşamağı bacaracaqlar.

O, qeyd edib ki, məqsədə çatmaq çox da asan başa gəlməyib. Siam əkizləri bətndaxili inkişaf dövründə döş və qarın nahiyyələrində bitişik olub, onların qaraciyərləri ümimi olub.

Mətbuatın məlumatında vurğulanır ki, uğurlu əməliyyat üçün həkimlər hər iki uşağa tam dəqiqliklə eyni vaxtda narkoz verməli idilər və onlar bunu yerinə yetirə biliblər.

## DOŞAB QİYMƏTLİ MÜALİCƏ VASİTƏSİDİR



Doşab çox qiymətli müalicəvi məhsuldur. Doşab qədimdən müxtəlif xəstəliklərin müalicəsində istifadə olunur.

Tut doşabı ən xeyirli doşab sayılır. Mütəxəssislər doşabı balla müqayisə edir və iddia edirlər ki, bəzi maddələrin səviyyəsinə görə doşab balı üstələyir. Doşabda dəmir balla müqayisədə daha çoxdur. Bu səbəbdən doşab qanazlığı zamanı və bu pozulmanın profilaktikası məqsədi ilə geniş istifadə olunur.

Doşab güclü iltihab əleyhinə təsirə malikdir. Soyuqdəymə zamanı doşab çox yaxşı kömək edir. Xəstənin vəziyyətini yaxşılaşdırır, tərləməni artırır, hərarəti salır.

Öskürək zamanı da doşab çox yaxşı kömək edir. Öskürəklə mübarizə etmək üçün 1 xörək qaşığı doşabı (uşaqlar üçün 1 çay qaşığı) 1 stəkan ılıq süddə həll edib xəstəyə vermək lazımdır.

Doşab immun sistemini möhkəmləndirir. Xəstəlik və ya cərrahi əməliyyat keçirmiş insanlar üçün doşab xüsusilə xeyirlidir.

Doşab ürək-damar sistemi üçün çox faydalıdır.

Doşab qaraciyərin dostudur. Onu möhkəmləndirir, ödqovucu təsir edir.

Belə hesab olunur ki, doşab kişilərdə potensiyanı gücləndirir.

## TBİLİSİ DÖVLƏT AZƏRBAYCAN PEŞƏKAR DRAM TEATRI NÖVBƏTİ UĞUR QAZANIB




Oktyabrın 4-də Gürcüstan paytaxtında Heydər Əliyev adına Tbilisi Dövlət Azərbaycan Peşəkar Dram Teatrının aktyorları tərəfindən A. P. Çexovun “Ayı” tamaşası oynanılıb.

“Ayı” tamaşası Heydər Əliyev adınaTbilisi Dövlət Azərbaycan Peşəkar Dram Teatrının aktyorlarının ifasında ilk dəfə Litvanın Yonava şəhərində keçirilən beynəlxalq teatr festivalında oynanılıb. Həm Litvada həm də Heydər Əliyev adınaTbilisi Dövlət Azərbaycan Peşəkar Dram teatrında oynanılan və quruluşçu rejissoru Turqay Vəlizadə olan tamaşada rolları teatrın istedadlı aktyorlarından Aslan Məmmədov, Leyla Qasımova, Binəli İslamoğlu və Turqay Vəlizadə ifa ediblər.

Litvanın Yonava şəhərində keçirilən festivalda isə Avstriya, Latviya, İspaniya və Litvanın bir neçə teatrı iştirak edib. “Ayı” tamaşası sözügedən festivalda ən yaxşı kişi aktyor, ən yaxşı rejissor və ən yaxşı ssenari nominasiyalarında qalib olub.

## TBİLİSİDƏ ƏNƏNƏVİ PENDİR FESTİVALI KEÇİRİLİB



Oktyabrın 10-11-də paytaxt Tbilisinin Rike parkında Gürcüstan kənd təsərrüfatı nazirliyi və Gürcüstan pendir istehsalçıları gildiyasının təşkilatçılığı ilə “Qafqaz pendiri 2015” pendir festivalı keçirilib. Festivalın təşkilatçısı Ana Mikadze jurnalistlərə festivalda müxtəlif pendir növlərinin nümayiş etdirildiyini bildirib. Festivalda pendirin satış-sərgisi ilə yanaşı, pendirin hazırlanma texnikası da festivalın qonaqlarına nümayiş etdirilib.

Adıçəkilən festivalı kənd təsərrüfatı naziri Otar Danelia, Tbilisi şəhər meri David Narmania və sakrebulo sədri Giorgi Alibeqaşvili açıblar.

Otar Danelia bildirib ki, festivalın əsas məqsədi gürcü pendirinin tanıdılmasıdır. Festivalda Gürcüstanın bütün regionlarından nümayəndələr iştirak edib. Salamura, muçli, quda, çeçil, çleçil, sulqun,şuşvela, ballı və çaxırlı pendir, keçi pendiri kimi 60-a qədər müxtəlif pendir növü, müxtəlif içlikli pendirli qəlyanaltılar təqdim edilib.

## TIRTILLAR QARIŞQALARI ÖZLƏRİNƏ QULLUQ ETMƏYƏ MƏCBUR EDİRLƏR



Yaponiyada Kobe universitetinin alimləri müəyyən ediblər ki, yapon kəpənəyi Narathura japonica-nın tırtılları təhlükəsizliklərini qarışqa-cangüdənlərin hesabına təmin edirlər. Onlar Pristomyrmex punctatus qarışqalarını xüsusi maddə ilə cəlb edirlər ki, qarışqalar həmin maddədən ötrü tırtıllara xidmət etməyə razılaşırlar.

Bioloqlar diqqət yetiriblər ki, tırtıl və qarışqa cütlüyü sabitdir. Xidmətçilər öz sahiblərindən aralanmırlar. Təcrübəyə əsasən qarışqaların bir hissəsinə tırtıllarla birgə fəaliyyət göstərməyə icazə veriblər, digərlərini isə ayrı saxlayıblar. Birinci qurupdan olan qarışqalar tırtıllardan ayrılan maddədən bir dəfə daddıqdan sonra onlardan ayrılmır və artıq öz yuvalarına qayıtmırlar. Bu maddə həm də qarışqaları təcavüzkar hərəkətlərə təhrik edir ki, bu da tırtılları xarici təhlükədən qorumaq üçün çox vacibdir.

Özlüyündə tırtıllar və qarışqalar arasında qarşılıqlı faydalı münasibətlər nadir hadisə deyil. Lakin bu vəziyyətdə parazit münasibəti açıq-aşkar görünür. Belə ki, qarışqaların bu “əməkdaşlıq”dan götürdükləri xeyir tırtılların xeyiri ilə müqayisədə çox azdır.

Təsisçi:
*“Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı”*

*Redaktor:*
**Afiq Muxtaroğlu**
*Yayım Direktoru:*
**Hacı Bəkiroğlu**

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.